DOI: https://doi.org/10.36719/2663-4619/112/118-121

**Leyla İbrahimova**
Gəncə Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-5209-8452
ibrahimvaleyla@gmail.com

# Paulo Koelhonun "Kimyagər" əsərində azadlıq, ümid və inam faktorlarının insan həyatına təsiri

**Xülasə**

Milyonlarla oxucunun sevərək mütaliə etdiyi bəşəri mövzulu əsərləri ilə dövrümüzün ən çox diqqət çəkən yazıçılarından biri olan Paulo Koelhonun ən məşhur əsəri "Kimyagər" romanıdır. Oxucunu sehrli və mistik bir dünyaya aparan əsər nəşr olunduğu zamandan bu günə qədər onlarla tədqiqatın, elmi araşdırmaların mövzusu olmuşdur. Həmçinin müxtəlif aspektlərdən təhlil edilmişdir. Bu məqalədə "Kimyagər" romanında hər hansı sahədə uğur qazanmaq üçün azadlıq, ümid, inam faktorlarının əhəmiyyəti əsərin ideyası ilə müqayisəli şəkildə təhlil edilmişdir. Məqalədə istənilən sahədə uğur qazanmaq üçün gələcəyə pozitiv baxışın əsas olması göstərilmişdir .Qeyd edilən ideya tanınmış şəxsiyyətlərin simasında əsaslandırılmışdır.

***Açar sözlər:*** *inam, ümid, azadlıq, mübarizə*

**Leyla Ibrahimova**
Ganja State University
Master student
https://orcid.org/0009-0002-5209-8452
ibrahimvaleyla@gmail.com

# The Influence of Freedom, Hope, and Faith on Human Life in Paulo Coelho's "the Alchemist"

**Abstract**

With his works on universal themes that are loved and read by millions, Paulo Coelho has become one of the most notable contemporary writers. His most famous novel, The Alchemist, takes the reader on a magical and mystical journey and has been the subject of numerous studies and academic research since its publication. It has also been analyzed from various perspectives. This article offers a comparative analysis of the importance of freedom, hope, and faith in achieving success in any field, as reflected in the main idea of The Alchemist. The article emphasizes that maintaining a positive outlook on the future is essential for success in any endeavor. This idea is supported through examples from well-known figures.

***Keywords:*** *faith, hope, freedom, struggle, Paulo Coelho*

## Giriş

Müasir dünya ədəbiyyatının ən çox oxunan müəlliflərindən olan Paulo Koelhonun ədəbiyyat aləmində böyük əks-səda yaratmış "Kimyagər" əsəri mistik auraya sahib, insanın arzularına çatması üçün daxili gücünü və mənəvi azadlığını qorumasının əhəmiyyətini vurğulayan fəlsəfi romandır. Əsər sadəcə bir macəra hekayəsi deyil, habelə insanın daxili potensialını kəşf etməsinin həyatının hansı istiqamət alacağında mühüm əhəmiyyətə malik bir bələdçi xarakteri daşıyır.Romanın əsas qəhrəmanı Santyaqo adlı bir çobandır. Müəllif arzularını reallaşdırmaq üçün səyahətə çıxan Santyaqonun simasında inam, ümid və azadlığın mənəvi gücü ideyasını ifadə etmişdir.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Məqalədə Paulo Koelyonun "Kimyagər" əsərində ümid, inam və azadlıq faktorlarının insan həyatına təsiri, onların insan taleyini formalaşdırmasındakı rolu və fərdi inkişafda oynadığı vacib funksiya tədqiq edilmişdir (Coelho, 2024, s. 216).

**Tədqiqat**

Müasir dünya ədəbiyyatının ən çox oxunan yazıçılarından biri olan Paulo Koelhonun "Kimyagər" əsəri oxucusunun həyatına məhz bir kimyagər kimi təsirsiz ötüşmür. Əsərin qəhrəmanı Santyaqo dünyanı gəzmək, görmək üçün çobanlıq peşəsini seçir, çünki maddi durumla əlaqədar olaraq, o yalnız bu yolla olduğu məkandan başqa yerləri görmək şansı qazana bilərdi. O, iki dəfə ardıcıl olaraq yuxusunda Misir piramidalarının yanında xəzinə olduğunu görür. Bundan sonra gənc oğlan özünü Melhisedek adlı şah kimi təqdim edən, lakin bəzən "beyinlərə düşən uğurlu fikir, yaxud düzgün qərar kimi də gəlməyə qabil olan" qocayla rastlaşır. Qoca ona anladır ki, dünyanın ruhu insanın ruhuyla qidalanır. Nə olursa, olsun insan öz Yoluyla inadkarcasına irəliləməyi bacarmalıdır (Coelho, 2019, s. 288).

Əsər elə ilk səhifələrdən özünə və məqsədə inam, inamın insan həyatına mühüm təsirini, inam və gözləntilərimizin həyatımıza yön verməsini oxucuya diqtə edir. Həyatının qərarlarını özü verən insanların daha xoşbəxt olmasını vurğulayır. Şəxsi məsuliyyət, öz həyatına nəzarət mövzusunda bir çox tədqiqatlar aparılmışdır (Tzı Çjuan, & Tzı Lao, 2017, s. 148). 1976-ci ildə nəşr olunan Langer. E.J. və Rodin. J məqalələrinin yekun hissəsində belə bir nəticə əldə edilir: "Müstəqillik və vəziyyətə nəzarət edə bilmək hissinin yalnız sizin xoşbəxtlik hissinizə təsir etməyib, həm də sizi daha sağlam hala gətirə biləcəyini görürsünüz". Əsərin əsas mesajlarından biri "Öz həyat idealını yaşamaq" ideyasıdır. Müəllif yuxusunda gördüyü xəzinənin axtarışına çıxan və bu yolda qarşılaşdığı çətinliklərə dözən, yoluna çıxan maneələri dəf edən Santyaqo obrazı vasitəsilə ümidlə, inamla, məqsədinə doğru irəliləyən şəxsin gec-tez istəyinə çatacağını təsvir etmişdir (Dispenza, 2022, s. 384).

Romanda Santyaqo, Fatimə, Kimyagəri axtaran ingilis obrazlarının inamlarının əsasında dayanan onların istəkləridir.Nəyisə qazanacağına inanmaq üçün ilk öncə onu istəməlisən. Şahin Həsənlinin də "Haradan başlamalı" kitabında vurğuladığı kimi: "Beləliklə, istək məhəbbətdir, çünki insan sevdiyini arzulayır". Əslində bizi inama aparan ən önəmli faktorunda məhz sevgi olduğu qənaətindəyik. Çünki sevgi ən güclü silahdır. Və insanın məqsədini, yolunu müəyyən etməsində onun nəyi sevməsinin əhəmiyyəti böyükdür. Sevginin gücü inamı və ümidi formalaşdırır. İnam isə Şahin Həsənlinin qeyd etdiyi kimi, ilk öncə zehnimizdəki maneələri aşmaqdır (Mandela, 2017, s. 643). İnamımız ümidimizi tükənməyə qoymur. "Kimyagər" əsərində də həmin ümid Santyaqonu Afrikaya gətirir, sahildəki fırıldaqçı tərəfindən aldadıldıqdan sonra tacirlə qarşılaşmasına səbəb olur, həmin ümid Santyaqonu Kimyagəri axtaran ingilislə qarşılaşdırır, həmin ümid getdikcə böyüyür, daha çox öyrənmək həvəsi yaradır, ingilisin kitablarını oxuyub "dünyada hər şey vahidin təzahürləridir" fikrini anlamasına səbəb olur. Lakin ümid və inam istəyə çatmağın sadəcə bir hissəsidir (Seksik, 2024, s. 160). Melhisedeyin dediyi kimi, insan nə istədiyini dəqiq bilməlidir. Çünki istəklər məqsədi yaradan mayakdır. Arzuya çatmaq üçün kifayət qədər səy və işi tamamlayacaq cəsarət lazımdır. Yoxsa əsərdəki ömürboyu həcc ziyarətini arzulayıb, ancaq arzusunun həyata keçəcəyi təqdirdə yaşamağa heç bir səbəbinin qalmayacağından qorxan qoca tacir kimi yalnız xəyal qurmağı bacararıq. Əslində bu həm də onu göstərir ki, ümidlərimiz, arzularımız bizim yaşam, həyata tutunma səbəblərimizdir.

Santyaqo səyahətə çıxdıqdan sonra bir çox maneələrlə üzləşir. O, bir dəfə soyğunçular tərəfindən aldadılır və bütün var-dövlətini itirir. Amma o, ümidini itirmədən yeni yollar axtarmağa davam edir. Məğlubiyyətə baxmayaraq, Santyaqo yaşadığı hadisələri bir dərs kimi qəbul edir və daha güclü olmağı öyrənir. Qəhrəmanı güclü tutan, ona çətinliklərdən uğurla çıxmasına müvəffəq edən Santyaqonun ümididir (Kinsun, 2024, s. 176).

Əgər Santyaqo ona yük olan mənəvi və maddi asılılıqlardan ,öz yolu ilə getməsinə maneə törədə biləcək hər şeydən azad olmasa idi, onda məqsədinə çata bilməzdi. 1933-cü ildə, E.Rezerfordun sədrlik etdiyi mitinqdəki çıxışında Albert Eynşteynin dediyi kimi, "Azadlıqlar olmasaydı, bizdə Şekspir, Göte, Nyuton, Paster, Faradey, Lister olmayacaqdı". Maddi və mənəvi azadlıq, seçim haqqı insanı daha xoşbəxt bir həyatla təmin edir. Azadlıq inkişafın əsasında duran əsas bazadır, özüldür. Əslində "Kimyagər" romanı oxucuya məhz bunu çatdırmaq istəyir. Azad seçim edən şəxslər daha güclü iradəyə sahib olurlar (Şapira, 2024, s. 240). Qarşılaşdıqları çətinliklərdə, maneələrə daha

möhkəm müqavimət göstərə bilirlər. Əsərdəki bəzi obrazların həyat hekayəsindən də gördüyümüz kimi gələcəyini istədiyi şəkildə qurmağa çalışan, sevdiyi işlə məşğul olan insanlar özlərini daha xoşbəxt hiss edirlər. Məhz A.Eynşteyn və yuxarıdakı sitatda onun adını çəkdiyi dahiləri birləşdirən əsas ortaq cəhət də onların sevdikləri peşəni yerinə yetirmələri, fəaliyyət göstərdikləri sahədə sevə-sevə çalışmaları olmuşdur. Müasir psixoloqların təbirincə desək, sevdiyiniz işdə çalışın, yox əgər sevdiyiniz işdə çalışmırsınızsa, onda işininiz sevin. Geniş mənada azadlıq, sevgi, ümid və istək mövzuları bir-birilə ayrılmaz formada əlaqədədir və bu nüansı "Kimyagər" romanında da müşahidə edirik (Heyq, 2024, s. 244).

Tarixdə yaşamış və böyük uğurlara imza atmış şəxsiyyətlərin həyat hekayəsini nəzərdən keçirərkən onların ən böyük dayağı və gücləri möhkəm mənəvi dəyərlərə, yəni mənəvi azadlığa, ümidə, yüksək ideallara sahib olmalarını müşahidə edirik. Habelə belə şəxsiyyətlərin ən çətin və çarəsiz anlarda belə ümidsizliyə qapılmamalarını görə bilərik. Qeyd edək ki, həyata qarşı bu cür yanaşma şəklinə qədim Çin və Yapon fəlsəfəsində, eyni zamanda antik yunan filosoflarının ideyalarında da rast gəlmək mümkündür. Bəhs etdiyimiz xüsusiyyətlərə malik şəxsiyyətlərdən bəzilərinin həyatına qısa baxış keçirərkən və uğurlu insanların ortaq cəhətləri haqqında araşdırmalara diqqət etdikdə Paulo Koelhonun "Kimyagər" romanında çatdırmaq istədiyi fikrin elmi əsası olduğunu müəyyənləşdiririk (Eagleman, 2020, s. 224).

Adı dünyanın 100 ən nüfuzlu insanının siyahısında olan, 1921-ci ildə Fizika üzrə Nobel Mükafatına layiq görülən, parlaq bir bioqrafiyaya sahib Albert Eynşteynin uğurlu həyat yoluna diqqət edərkən onun uşaqlıqdan öz istəklərinin arxasınca getdiyini müşahidə edirik. Alim hətta yeniyetmə yaşında öz məqsədi üçün (təhsili üçün) ailəsindən, sevdiklərindən uzaq qalmağın çətinliklərinə dözür. Ən sıxıntılı və çıxış yolu yoxmuş kimi görünən anlarda belə heç vaxt ümidini itirmir. Həyatı boyunca onu tənqid edən onlarla insanla qarşılaşmasına baxmayaraq, inamını itirmir və məqsədi üçün inadla mübarizə aparır (Bıyıklıoğlu, 2024, s. 80). A.Eynşteynin simasında da məhz P.Koelhunun "Kimyagər" əsərində bəhs etdiyi ümid və inamının, öz yolunu seçməyin qürurunu yaşayan bir şəxs izləyirik. Əslində A.Eynşteynin şəxsiyyətində yüksək zəka sahiblərinin ən çətin şəraitlərdə belə, sadəcə elmləri və biliklərinin üstünlüyü ilə deyil, habelə uğura sarsılmaz bir ümidlə inandıqlarını görürük (Hock, 2022, s. 232).

1993-cü ilin Nobel Sülh Mükafatı laureatı, aparteid əleyhinə apardığı mübarizə uğrunda 27 il həbs cəzası çəkən, həbsdə ikən sevdiklərini bəzilərini itirən, heç birinində cənazəsində iştirakına icazə verilməyən Nelson Mandelanın həyatına müraciət edək. N.Mandelanın 27 illik həbs müddətində möhkəm dayanıqlılığının açarı onun ümidi və inamı idi. N.Mandelanın ümidi həm şəxsi, həm də kollektiv xarakter daşıyaraq ümidin hər çətinliyə qalib gələcəyini, istənilən mübarizədən zəfərlə ayrılacağını təsdiq (Qordon, 2023, s. 114). "Kimyagər"də də müəllif məhz bu ümidin, inamın bəşəriyyətin taleyində vacib əhəmiyyət daşımasını, hətta dönüş nöqtəsi ola biləcəyini təsvir etmişdir. Dahilərin uğur və yeniliklərə inancı şəxsi müvəffəqiyyətləri ilə məhdudlaşmır, bu həmçinin insanlığın birgə irəliləyərək, kollektiv fəaliyyətinin və ümidin insanlığın inkişafında mühüm əhəmiyyətini isbat edir. Haqqında bəhs etdiyimiz şəxsiyyətlərin simasında tarixə yön verənlərin sarsılmaz bir ümidə, inama və onları hərtərəfli müstəqilliyə aparan mənəvi azadlığa sahib olduqlarını müəyyənləşdiririk. Əslində P.Koelho da "Kimyagər"də əsərin qəhrəmanı Santyaqo və digər köməkçi obrazların vasitəsilə hər hansı məqsədə çatmaq üçün insanın ümidli olmasını, məqsədlərinə köklənməsini, müvəffəqiyyətə inanmağın vacibliyini oxucuya çatdırmaq istəmiş və buna nail olmuşdur (Həsənli, 2020, s. 197).

## Nəticə

Paulo Koelhunun yaradıcılığını araşdırarkən onun insan ruhunun dərinliklərinə enməyi bacaran bir yazıçı kimi görür, eyni zamanda elmi və psixoloji faktlara əsaslanaraq romanlar və hekayələr qələmə aldığını müşahidə edirik. Müəllif "Kimyagər" romanında da müasir elmi araşdırmalara görə, uğurlu olmaq üçün əsas nüanslardan sayılan azadlığın, müstəqil seçim edə bilməyin, məqsədinin arxasınca inamla və inadla irəliləməyin, heç vaxt ümidsizliyə və pessimistliyə qapılmamağın əhəmiyyətini poetik bir dillə təsvir etmişdir. Roman oxucusunun həyatını müsbətyönlü istiqamətdə dəyişməyə qabil bir əsərdir.

## Ədəbiyyat

1. Bıyıklıoğlu, Z. (2024). *Sokrat, insanın həqiqət axtarışı və ali əxlaq fəlsəfəsi: özünüdərk*. Bakı: Mimta, 80.
2. Coelho, P. (2024). *Kimyagər*. Bakı: Qanun, 216
3. Coelho, P. (2019). *Hippi*. Bakı: Qanun, 288.
4. Dispenza, J. (2022). *Təhtəlşüurun gücü: və ya 4 həftəyə həyatı necə dəyişmək olar*. Bakı: Qanun, 384.
5. Eagleman, D. (2020). *Beyin: sənin hekayən*. Bakı: Qanun, 224.
6. Mandela, N. (2017). *Azadlığa doğru uzun yol: Nelson Mandelanın avtobioqrafiyası*. Bakı: Teas Press, 643.
7. Seksik, L. (2024). *Albert Eynşteyn*. Bakı: Altun, 160.
8. Heyq, M. (2024). *Sağ qalmaq üçün səbəblər*. Bakı: Teas Press, 244.
9. Hock, R. (2022). *Psixologiya elmini sarsıtmış 40 tədqiqat*. Bakı: Qədim Qala, 232.
10. Kinsun. (2024). *Yol sənin içindədir*. Bakı: Teas Press, 176.
11. Qordon, C. (2023). *Şikayətlənməmək qaydası*. Bakı: Teas Press, 114.
12. Şapira, H. (2024). *Xoşbəxtlik və böyük əhəmiyyətli digər kiçik şeylə*r. Bakı: Teas Press, 240.
13. Həsənli, Ş. (2020). *Haradan başlamalı*. Bakı: İrşad, 197.
14. Tzı Çjuan, & Tzı Lao. (2017). *Daosizm*. Bakı: Teas Press, 148.